*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 84–88
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 84–88
DOI: https://doi.org/10.36719/2706-6185/60/84-88

# Böyük İpək Yolunun coğrafiyasında Türk dövlətçilik irsi: siyasi idarəetmə sistemi və yazı mədəniyyətinin təkamülü

**Vüqar Abbasov[1*], Lalə Əliyeva[1], Xoşqədəm Zeynalova[1]**

***Xülasə.*** *Məqalə Böyük İpək Yolu coğrafiyasında Türk dövlətçilik irsinin və yazı mədəniyyətinin təkamül proseslərinə nəzər salır. Məqalədə Türk idarəetmə sisteminin fundamental prinsipləri, xüsusilə "Tanrı Qut" konsepsiyası və xaqanın sosial öhdəlikləri araşdırılır. Mənbələrə əsasən xaqanın səlahiyyətləri geniş spektrdə təsnif edilir: hərbi, diplomatik, məhkəmə, inzibati və s. Lakin bütün bu səlahiyyətlərin "xalqın istəklərini nəzərə almaq" şərti ilə bağlanması, sistemin monarxiya olmasına baxmayaraq, xalqın rəyinə (məsələn, Qurultay vasitəsilə) əhəmiyyət verdiyi də nəzərə çatdırılır.*

*Eyni zamanda, petroqliflərdən Orxon-Yenisey abidələrinə qədər olan yazı sistemlərinin inkişafı və bu mədəniyyətin geniş kütlələr tərəfindən istifadəsi təhlil edilir. Yazılarda fonetik əsaslı, mükəmməl bir əlifbanın istifadə olunduğu diqqəti çəkməkdədir. Əlifbanın formalaşması, yazıda imla qaydalarının yaranması və tətbiqi prosesinin arxasında minilliklərə söykənən tarixi bir keçmişin dayandığı təkzibedilməz bir həqiqət kimi özünü büruzə verir.*

*Arxeoloji və terminoloji dəlillərə əsaslanaraq, yekun qənaət ondan ibarətdir ki, qədim Türk idarəetmə modelləri və yazı sistemləri sadəcə regional deyil, bütövlükdə Avrasiyanın qlobal siyasi və mədəni inkişaf strategiyalarının mühüm tərkib hissəsi kimi dəyərləndirilməlidir.*

***Açar sözlər:*** *Böyük İpək Yolu, Türk dövlətçilik irsi, siyasi idarəetmə, yazı mədəniyyəti, oturaq sivilizasiya*

[1] Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: abbasovvuqar571@gmail.com
Daxil oldu: 22 Yanvar 2026; Qəbul edildi: 3 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Heritage of Turkic Statehood in the Geography of the Great Silk Road: The Evolution of the Political Governance System and Writing Culture

**Vuqar Abbasov[1*], Lala Aliyeva[1], Xoshgedem Zeynalova[1]**

***Abstract.*** *The article examines the evolution of Turkic statehood heritage and writing culture within the geography of the Great Silk Road. It explores the fundamental principles of the Turkic governance system, focusing specifically on the concept of 'Tanri Qut' and the social responsibilities of the Khagan. Based on the sources, the powers of the Khagan are classified across a wide spectrum, including military, diplomatic, judicial, administrative, and others. However, it is highlighted that all these powers were conditioned upon 'considering the will of the people.' This demonstrates that despite being a monarchy, the system placed significant importance on public opinion, facilitated through institutions such as the Kurultai.*

*At the same time, the development of writing systems—from petroglyphs to the Orkhon-Yenisei monuments—and the widespread use of this culture among the masses are analyzed. It is noteworthy that a phonetically-based, sophisticated alphabet was employed in these inscriptions. The fact that a historical background spanning millennia lies behind the formation of the alphabet and the emergence and application of orthographic rules manifests itself as an undeniable truth.*

*Based on archaeological and terminological evidence, the final conclusion is that ancient Turkic governance models and writing systems should be evaluated not merely as regional phenomena, but as an essential component of the global political and cultural development strategies of Eurasia as a whole.*

***Keywords:*** *Great Silk Road, Turkic statehood heritage, political governance, written culture, sedentary civilization*

---

[1] Ganja State University, Ganja, Azerbaijan
[*]Corresponding author. E-mail: abbasovvuqar571@gmail.com
Received: 22 January 2026; Accepted: 3 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Bəşər tarixi sivilizasiyaların yüksəlişi və süqutu ilə müşayiət olunan mürəkkəb təkamül prosesidir. Bu prosesin ən dinamik və həlledici hərəkətverici qüvvələrindən biri olan türk xalqları uzaq əsrlərin enişli-yoxuşlu yollarından keçərək təkcə hərbi gücü ilə deyil, həm də fundamental dövlətçilik ənənələri ilə dünya tarixində öz izlərini qoymuşlar. Macarıstan düzənliklərindən Çin səddinə qədər uzanan geniş bir coğrafiyanı nal naxışları ilə "işləyən" bu irs dərin inkişaf etmiş hüquq sistemini, "törə"yə əsaslanan sosial-siyasi nizamı və mükəmməl hərbi-inzibati təşkilatı birləşdirir. Türklərin hərbi qələbələri tarixi ədəbiyyatda kifayət qədər işıqlandırılsa da, yaratdıqları nəhəng imperiyaların daxili sabitliyini təmin edən idarəetmə sənəti olan "Pax Turcica" (Türk sülhü) anlayışı hələ də sistemli təhlilə ehtiyac duyur. Müxtəlif etnosları və inancları vahid hüquqi müstəvidə birləşdirən mütəşəkkil bir struktur olan Türk dövlətçilik modeli qlobal siyasi irsin formalaşmasında mühüm katalizator rolunu oynamışdır. Bu məqalənin məqsədi arxaik dövrlərdən süzülmüş türk idarəetmə strategiyalarını təhlil etmək və bu irsin müasir tarixşünaslıqdakı yerini və qlobal sivilizasiyaya təsirini obyektiv şəkildə qiymətləndirməkdir.

**Tədqiqat**

Türk dövlətlərini xan adını daşıyan hökmdar idarə edirdi. Türk xanın titulu Tenqri Qut – Tanrı Qutdur. Xanın böyük səlahiyyətləri vardır. Tanrı Qut dövləti idarə edərkən ənənələri, xalqın istəklərini nəzərə almaq, onun ehtiyaclarını ödəmək, dövlət daxilində əmin-amanlığı və asayişi təmin etmək, dövləti qorumaq kimi vəzifələri də həyata keçirmək üçün də mükəlləf idi. Yüksək vəzifəli məmurları təyin edən və işdən çıxaran Tanrı Qut idi. Tanrı Qut xalqı mövcud qanunlara riayət etməyə məcbur etməklə bərabər, yeni qanunlar da qoya bilərdi (Arsal, 1977, s. 201).

Xalqı doyurmaq, geydirmək, çoxaltmaq, milli birliyi və asayişi təmin etmək hökmdar olmanın önəmli şərtləri arasındadır. Belə ki, Bilgə xan "Tanrı buyurduğu üçün, dövlətim, qismətim var olduğu üçün, öləcək milləti dirildib bəslədim. Çiplaq milləti paltarlı etdim. Kasıb milləti zəngin etdim. Az milləti çox etdim" (Ergin, 1979, s. 23) deyərkən hökmdar olmanın şərtlərinə əməl etdiyini açıq bir şəkildə bildirmək ehtiyacını duymuşdu. Gördüyümüz kimi mətn Türk dövlətçilik ənənəsinin fundamental prinsiplərini -hakimiyyətin mənbəyi, hökmdarın legitimliyi və dövlət-fərd münasibətlərini əhatə edir. "Tenqri Qut" titulu, Türk siyasi təfəkküründə hakimiyyətin ilahi mənbəli olduğunu (teokratik əsas), lakin hökmdarın "allah-şah" olmadığını göstərir. Qut, Tanrı tərəfindən xaqana verilən idarəetmə istedadı və uğurudur. Lakin bu, mütləq və daimi deyil. Əgər xaqan uğursuzluğa düçar olarsa, xalqı ac qoyarsa və ya məğlub olarsa, bu, "Tanrının qutu geri alması" kimi yozulurdu. Bu da hakimiyyətin həm ilahi, həm də mənəvi məsuliyyət daşıdığını göstərir.

İslamdan əvvəlki türklərdə dövlət, sırf İslamdan sonrakı Türk Dövlətlərində olduğu kimi aristokratların, əsilzadələrin dövləti deyil, tamamilə Türk millətinin dövlətidir. Dövlət əsilzadələr ya da aristokratlar yox olmasın deyə deyil, Türk milləti yox olmasın deyə qurulmuşdur. Həmçinin, xaqan da aristokratlar və ya əsilzadələr üçün deyil, Türk milləti üçün vardır və dövlət, türk milləti üçün qurulmuşdur. Uyğur yazılarında dövlət başçısının xalqa qarşı cavabdehliyi belə qeyd etməkdədir: "O əsirgəyici və qoruyucu idi. Öz xalqını himayə və müdafiə edərdi" (Orkun, 1986, s. 42). Xaqan mövqeyini müdafiə etdiyi müddətdə, fallıqdakı yumurtalıqlarını qoruyan bir toyuq kimi təbəəsini qoruyurdu" (Orkun, 1986, s. 40).

Digər Şərq və Qərb ölkələrində olduğu kimi, cəmiyyətin bəlli bir qismini, bəlli bir sosial sinfi deyil, varlını, kasıbı, acı, çılpağı ilə bütün Türk millətini qucaqlayıb, bağrına basan bu duyğu, bu anlayış, bu inanc və misallarını gördüyümüz bu icraatdır ki, cəmiyyətin şüurunda "Dövlət Ata" ideyasının doğulub formalaşmasına səbəb olmuşdur.

Əgər Türk hökmdarı cəmiyyətə qarşı vəzifələrini yerinə yetirməsə, Qutunun Tanrı tərəfindən geri alındığını düşüncəsiylə iqtidardan düşərdi. Göy Türk tarixində gənc hökmdar İnal Xaqana qarşı olan 716-cı il üsyanı bu həqiqətə əsaslanırdı. Bu şərtlər daxilində Türk hökmdarlığı xarizmatik görünüşünə baxmayaraq, qanuna əsaslanan qanuni bir tipi təmsil edirdi ki, (Ergin, 1979, s. 762) hökmdarın mütləq qanunlara riayət etməsi lazım olduğu, əks təqdirdə cəzalandırıldığı, doğruluğu qətiləşmiş tarixi hadisələrdən görüldüyü kimi, dastanlarda da öz əksini tapmışdır.

Qurultaylarda müxtəlif dövlət məsələləri müzakirə olunduğu kimi, rütbə, damğa və simvollar (onqun) da qurultaylarda verilirdi. Hunların dövründə insan və heyvanı siyahıya almaq üçün də qurultay çağrılmışdır (Ögel, 1989, s. 217). Xanın səlahiyyətləri son dərəcə geniş olmasına baxmayaraq, bu səlahiyyət törə, qanun hökmləri və qurultay qərarları ilə məhdudlaşdırılmışdır. Xan qurultayda, başbuğların yüksək dövlət məmurlarının və hətta xalqın önündə mühakimə olunmuş, törə və qanunlara zidd davranması halında iqtidardan uzaqlaşdırılırdı (Sevinc, 1987, s. 178).

Dövlətdə xandan sonra birinci şəxs yabqu sayılırdı. Əslində yabqu vitse-kral idi və bu vəzifəyə bir qayda olaraq hakimiyyətdəki nəslin nümayəndələri təyin edilirdilər.

Türk dövlətlərinin idarəetmə sistemi ilə bağlı məsələlər bir çox türk dilli yazılı mənbələrdə öz əksini tapmışdır. Belə ki, türklərin dilinin tarixini Türklərə bağlayan elm adamları arasında «Türklərin köçəri bir qövm olduqları, ancaq eyni zamanda zəngin bir mədəniyyətə və inkişaf etmiş bir əlifbaya da sahib olduqları» görüşü hakimdir. Bu görüşün öz daxilində ziddiyyətlər olduğu açıqdır. Ancaq köçəri bir kütlənin və ya qövmün qısa müddətdə zəngin bir mədəniyyət və inkişaf etmiş bir əlifbanı ərsəyə gətirməsi mümkün deyildir. Çünki millətlərin özlərinə aid mədəniyyətlərini və əlifbalarını yarada bilmələri üçün oturaq həyata keçmələri və minlərlə illik bir keçmişə sahib olmaları lazım idi. Bu gün Monqolustan sərhədləri içində qalan torpaqlardakı həm qayaüstü təsvirlər, bəngü daşlar (təsvirli, damğalı və yazılı daşlar), kurqanlar, xatirə məzarları, arxeoloji tapıntılar və şəhər qalıntıları, həm də paralel tarixi qaynaqlar Türk millətinin tarixini Sakların, Hunların tarixləri ilə əlaqələndirməyə və miladdan öncəsinə daşımağa açıqca imkan verən dəlillərdir.

Bunlardan ən önəmliləri:
1. Qayaüstü təsvirlər (Petroqliflər). Mövzunun mütəxəssislər tərəfindən bir dövrün ifadə vasitəsi, yazısı olaraq qeyd olunan qayaüstü təsvirlərə Türk millətinin yaşadığı, yurd edildiyi həmin hər bölgədə rast gəlmək mümkündür. Belə ki, döymə və oyma texnologiyasıyla vücuda gətirilən əsas mədəniyyət və sənət əsərlərinin bir qismi Sak, bir qismi Hun, bir qismi (Göy) Türk, bir qismi Avar, bir qismi də Uyğur dönəmlərinə aiddir. Yəni qayaüstü təsvirlərin olduğu bölgələr, tarixin hər dönəmində Türk boylarının həm duyğu və düşüncələrini ifadə etdikləri, həm Tanrıya yalvardıqları, həm də ölülərini yandırdıqları müqəddəs yerlər olmuşdur (Kitapçı, 1987, s. 93).
2. Damğalar. Damğalar yaşayışın və insanın kristallaşmış şəkilləridir. Monqolustandakı qayalar, dikili daşlar, yazılar və arxeoloji tapıntılar üzərindəki Sak, Hun, Avar, Türk və Uyğur dönəmlərinə aid damğalar həm Türk boylarının bir-birilə olan əlaqəsini ortaya qoymaqda, həm də (Göy) Türk əlifbasının qaynağı haqqında məlumatları özündə əks etdirməkdədir.
3. Dikili daşlar. Monqolustanda Saka, Hun, Avar, Türk və Uyğur dönəmlərinə aid minlərlə dikili daş olmaqdadır. Boyları 1 – 4 m arasında dəyişən bu dikili daşların bir qisminin üzərində hər hansı bir şey olmazkən, böyük bir qisminin üzərində təsvir və damğalar yer almaqdadır. Dikili daşlar üzərindəki təsvirlər və damğalar bu mədəniyyət və sənət əsərlərinin həm eyni yaşayış və inancın məhsulu olduqlarını, həm də yazılara gəlincəyə qədər «bəngü daş dikmə adəti»nin keçirmiş olduğu mərhələləri diqqətlərə çatdırmaları baxımından son dərəcə qiymətlidirlər.
4. Yazılar. Türk dilinin tarixləndirilməsi məsələsində, bir qayda olaraq, II Türk Xaqanlığı dövründə təşəkkül tapmış Orxon abidələri tədqiqatçılar tərəfindən ən qədim yazılı mənbələr kimi qəbul edilir. Lakin günümüzdə sayı yüzlərlə ölçülən Monqolustan, Yenisey və Altay bölgələrinə aid qədim türk yazı nümunələrinin böyük bir qisminin adı və lokalizasiyası, təəssüf ki, geniş ictimaiyyətə deyil, yalnız dar ixtisas sahiblərinə və mövzunun mütəxəssislərinə məlumdur (Arsal, 1977, s. 141). Yazıların böyük bölümünün hansı əsrə aid olduqları və kimlər tərəfindən yazıldıqları isə hələ təsbit edilmiş deyildir.

Əski Türk yazılarında bir hərfin fərqli şəkillərinin olması, hərflərin xarakterlərinin və yazı stillərinin, bölgələrə, statusa və kişilərə görə dəyişməsi; oyma və qazıma texnologiyası ilə yazılmış yazıların yanında boya ilə yazılmış yazıların da (Xoyd Tamir yazıları) olması Türk əlifbasının nə qədər işlək olduğunu gözlər önünə sərməkdədir.

Bir dilin sadəcə ünsiyyət vasitəsi deyil, həm də frazeoloji birləşmələr, məcazlar və atalar sözləri yarada bilən zəngin bir sistemə çevrilməsi, habelə ədəbiyyat və sənət dili səviyyəsinə yüksəlməsi üçün ən azı 2-3 min illik tarixi təkamül yolu keçməsi zəruridir. Bu səbəbdən 732-735-ci illər arasında meydana gələn Orxon abidələrində atalar sözü və bədii-fəlsəfi qəliblərin yüksək ustalıqla işlədilməsi, bu yazılı sənədlərin Türk dilinin ilk nümunələri deyil, əksinə, daha köklü və uzunmüddətli bir ədəbi ənənənin məhsulu olduğunu sübut edir.

**Nəticə**

Tədqiqatın gedişində əldə olunan nəticələr göstərir ki, Türk dövlət sistemində hakimiyyətin mənbəyi olan "Tanrı Qut" konsepsiyası, hökmdara sonsuz səlahiyyət verməklə yanaşı, onu xalqın rifahı və sosial təhlükəsizliyi qarşısında birbaşa məsuliyyətli qılmışdır. Bu, qədim dövr üçün mütərəqqi hesab olunan "sosial dövlət" modelinin təzahürüdür. Petroqliflərdən və damğalardan təkamül edərək formalaşan fonetik Türk əlifbası (Orxon-Yenisey abidələri), Türk dilinin həm diplomatik, həm də ədəbi səviyyədə yüksək inkişaf etdiyini sübut edir.

Nəticə etibarilə, qədim Türk dövlətçilik və yazı sistemlərinin keçdiyi təkamül yolu Avrasiya sivilizasiyasının ümumi siyasi irsinin fundamental sütunlarından biri kimi qəbul edilməlidir.

**Ədəbiyyat**

1. Anadolu, K. (1996). *Orta Asiya Türk dövlətləri tarixi*. Kamer Yayınları.
2. Arsal, S. M. (1977). *Türk tarixi və hüquq*. İstanbul Universiteti Hüquq Fakültəsi Yayınları.
3. Ergin, M. (1979). *Orxun abidələri*. Boğaziçi Yayınları.
4. Gökalp, Z. (1986). *Türk mədəniyyəti tarixi* (Cild 2). Kültür Nazirliyi Yayınları.
5. Gumilyov, L. N. (1960). *Xunnu*. Şərq Ədəbiyyatı Nəşriyyatı.
6. Gumilyov, L. N. (1991). *Xəzər ətrafında minillik*. Azərnəşr.
7. Kafesoğlu, İ. (1976). *Mədəniyyət və təşkilat*. In *Türk Dünyası El Kitabı*. Türk Kültürünü Araşdırma İnstitutu Yayınları.
8. Kitapçı, Z. (1987). *Orta Şərqdə türk hərbi varlığının ilk zühuru*. Türk Dünyası Araşdırmaları Vəqfi.
9. Muxtarova, Y. (2002). *Türk xalqlarının dövlətçilik tarixi*. Adiloğlu.
10. Orkun, H. N. (1986). *Qədim Türk yazıtları* (Cild 2). Türk Dil Qurumu Yayınları.
11. Ögel, B. (1989). *Türk mədəniyyətinin inkişaf mərhələləri*. Türk Dünyası Araşdırmaları Vəqfi.
12. Qumilyov, L. (1993). *Qədim türklər*. Gənclik.
13. Sevinç, N. (1980). *İslamdan əvvəlki Türk hüququ*. Türk Dünyası Araşdırmaları, (1).